

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 229 (21.130)

2 dekabr 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə işgüzar səfərdə olan Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.

Azərbaycan Prezidenti İlham Əliyev Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qanini qarşıladı.

Prezidentlər birgə foto çəkdirdilər.

Daha sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü oldu.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlət başçıları, həmçinin regional əməkdaşlıq, investisiya, energetika, inşaat, kənd təsərrüfatı, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın perspektivlərini müzakirə etdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani və Əfqanıstanın icra rəisi Abdulla Abdulla çay süfrəsi arxasında söhbəti davam etdirdilər.

## Şahbuz rayonunun Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi istifadəyə verilmişdir





Dekabrın 1-də – Xalq şairi Məmməd Arazın anım günündə onun doğulub boya-başa çatdığı Şahbuz rayonunun Nursu kəndində ev-muzeyinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Sonra Ali Məclisin Sədri, şairin ailə üzvləri və tədbir iştirakçıları ədibin muzeyin foyesindəki portretinin önünə gül dəstələri qoymuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xalq şairi Məmməd Arazın ev-muzeyinin açılışı münasibətilə tədbir iştirakçılarını, ziyalıları, muxtar respublikanın ədəbi ictimaiyyətini təbrik edərək demişdir: “Məmməd Araz yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafında mühüm mərhələ təşkil edir. Ölkə Prezidenti cənab İlham Əliyev Məmməd Arazın Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini yüksək dəyərləndirərək demişdir: ***“Ana dilinin bütün incəliklərini özündə toplamış Məmməd Araz poetik irsi gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşması baxımından müstəsna əhəmiyyətə malikdir”.***

Ali Məclisin Sədri demişdir: “Şahbuzun Nursu kəndində dünyaya göz açan, ilk təhsilini Nursuda alan Məmməd Araz Azərbaycan Pedaqoji İnstitutunu və Moskvada Ədəbiyyat İnstitutunu bitirmiş, nəşriyyat, qəzet və jurnallarda müxtəlif vəzifələrdə çalışmış, Azərbaycan Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik etmiş, 1974-cü ildən ömrünün sonunadək “Azərbaycan təbiəti” jurnalının baş redaktoru olmuşdur. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, Məmməd Arazın həyatı ədəbiyyatın yüksək məramına xidmətdə keçmiş, bu sahədə misilsiz nailiyyətlər qazanaraq Azərbaycan lirikasının poetik zirvəsini fəth etmiş və bu zirvədə əbədi yaşamaq haqqı qazanmışdır.

Məmməd Araz yaradıcılığının bir missiyası vardı. O da poetik Azərbaycan dünyasına xidmətdən, Vətən qarşısında ziyalı borcunu yerinə yetirməkdən ibarət idi. O, bu yolla gedərək Azərbaycanda vətəndaşlıq poeziyasının əsasını qoymuşdur. Məmməd Araz şerində “Vətən” sözü qürurla səslənir. Onun yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Məmməd Arazın Azərbaycana və onun bir parçası olan Naxçıvana həsr etdiyi şeirlər Vətən mövzusunda ən yaxşı əsərlər kimi dəyərləndirilə bilər. Məmməd Araz düşünən və düşündürən şairdir. O, Azərbaycan poetik-fəlsəfi fikrinin ən yaxşı nümunələrini



yaratmışdır. Şairin ötən əsrin 70-ci illərindən başlayaraq qələmə aldığı insan və dünya barədə fəlsəfi düşüncələri böyük tərbiyəvi əhəmiyyətə malikdir. Bu gün misraları zərbi-məsələ, hikmətli sözlərə çevrilən az sayda yaradıcı şəxsiyyət var ki, onlardan biri də Məmməd Arazdır”.

Ali Məclisin Sədri demişdir: “Məmməd Araz Azərbaycandan, həyatın reallıqlarından yazırdı. Lakin o yerdə ki həyatın sərt reallıqları şerin poetik ölçülərinə sığışmırdı, Məmməd Arazın şair qələmi alovlu publisist qələminə çevrilirdi. Onun publisistikası da şeirləri kimi insanı düşündürən və buna görə də uzunömürlük qazanan ciddi yaradıcılıq nümunələridir. Məmməd Arazın qələminə məxsus “Yer üzünün Qarabağ düzü”, “Naxçıvan albomu” publisistik yazıları aradan uzun illər keçməsinə baxmayaraq, bu gün də aktuallığını və müasirliyini itirməyib. Oxucuya yüksək keyfiyyətlər aşılayan Məmməd Araz yaradıcılığı dövrümüzün sənət zirvəsini təşkil edir. Ümummilli liderimiz Heydər Əliyev məhz bu keyfiyyətlərinə görə Məmməd Araz yaradıcılığını yüksək qiymətləndirmiş və demişdir: ***“Məmməd Araz yaradıcılığının təhlilinə, təbliğinə və tədqiqinə böyük ehtiyac var”.***

Bu gün görkəmli şairin yaradıcılığının tədqiqi və təbliği məqsədilə onun doğulub boya-başa çatdığı Nursu kəndində ev-muzeyi istifadəyə verilir. Məmməd Arazın anım günündə istifadəyə verilən bu muzey müstəqillik dövrünün Azərbaycanında böyük istiqlalçı və vətəndaş şairin xatirəsinə ehtiramın parlaq ifadəsidir”.

Ali Məclisin Sədri muzeyin Məmməd Araz irsinin öyrədilməsində mühüm xidmətləri olacağına inamını bildirmiş, böyük şairin xatirəsini bir daha ehtiramla yad etmiş, çıxışını ümummilli liderimizin müdrik kəlamları ilə bitirmişdir: ***“Məmməd Araz Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerini tutacaqdır”.***

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Məmməd Arazın ev-muzeyinin istifadəyə verilməsini böyük mədəniyyət hadisəsi kimi dəyərləndirərək demişdir: “Böyük sənətkarın zəngin ədəbi fəaliyyəti Azərbaycan poeziyasına bir-birindən dəyərli sənət inciləri bəxş etmişdir. Qüdrətli söz ustası XX əsr Azərbaycan ədəbiyyatında parlaq səhifə açmış, onun əsərləri gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynamışdır. Məmməd Arazın dünya haqqında, Azərbaycan haqqında yazdığı şeirlərin qayəsində ata ocağına məhəbbət xüsusi yer tutur. Bu ocaq Məmməd Araz şerinin düşüncəsini, fəlsəfəsini irəli aparan qüvvətli meyardır. Bu mənada yanaşdıqda, Naxçıvan, bütövlükdə, Məmməd Arazın böyük sənətə çıxış nöqtəsi və hərəkətverici qüvvəsi hesab olunur. O, ömrünün müxtəlif dövrlərində qələmə aldığı əsərləri ilə Azərbaycanda vətənpərvərlik ədəbiyyatının əsasını qoymuş və bunu vətəndaşlıq missiyası səviyyəsinə yüksəltməyi bacarmışdır. Ədibin *“Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı”* misrası, ümumilikdə, müstəqillik dövrü Azərbaycan ədəbiyyatının epiqrafıdır”.

Qeyd olunmuşdur ki, Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması ümummilli liderimiz Heydər Əliyevin sənətə, sənətkara, ziyalılara, ədəbiyyata göstərdiyi böyük hörmət ənənələrinin daha bir təntənəsidir. Eyni zamanda bu muzey binasının istifadəyə verilməsi ölkə Prezidenti cənab İlham Əliyevin “Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında”kı Sərəncamının icrası istiqamətində görülən işlərə ən layiqli töhfədir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev demişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin çoxşaxəli fəaliyyətində ədəbiyyat və mədəniyyət məsələləri mühüm yer tutmuşdur. Ulu öndərimiz həm Məmməd Arazın şəxsiyyətinə, həm də böyük istedadına, bənzərsiz sənətinə daim yüksək qiymət vermiş, Xalq şairini “İstiqlal” ordeni ilə təltif etmişdir. Ümummilli liderimizin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də

Ardı 2-ci səhifədə





görkəmli şairin Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini nəzərə alaraq 2013-cü il sentyabrın 27-də “Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalamışdır. Ötən il şairin 80 illik yubileyi ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında geniş qeyd olunmuşdur. Muxtar respublikamızın rayonlarında, elm, təhsil və mədəniyyət müəssisələrində, yaradıcılıq təşkilatlarında tədbirlər keçirilmiş, şairin əsərlərindən ibarət sərgilər təşkil edilmiş, Naxçıvan şəhərindəki küçələrdən birinə Xalq şairi Məmməd Arazın adı verilmişdir. Bundan əlavə, Məmməd Arazın 80 illik yubileyi ilə əlaqədar poçt markası buraxılmış, elmi konfranslar keçirilmiş, “Məmməd Araz: taleyi və sənəti” məqalələr toplusu çap olunmuş, “Naxçıvan” jurnalının bir nömrəsi böyük şairə həsr olunmuşdur. Bu gün Məmməd Arazın ev-muzeyinin istifadəyə verilməsi isə istiqlal şairinin zəngin ədəbi irsinə ən böyük ehtiramın və hörmətin ifadəsidir.

İsmayıl Hacıyev Məmməd Araz irsinin öyrənilməsi istiqamətində həyata keçirdiyi tədbirlərə və ev-muzeyinin istifadəyə verilməsinə görə muxtar respublikanın yaradıcı ziyalıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar qeyd etmişdir ki, poeziyamızda öz səsi, öz nəfəsi ilə seçilən Məmməd Arazın əbədiyyətə qovuşmasından 10 il keçir. Lakin bu gün şairin doğma kəndində ev-muzeyinin istifadəyə verilməsi ilə Məmməd Araz yenidən doğulur, yenidən dünyaya gəlir. 50 ildən artıq bədii yaradıcılıqla məşğul olan şairin əsərləri ona geniş oxucu rəğbəti qazandırmışdır. O, dilimizin bütün poetik imkanlarını üzə çıxarmağa çalışmış, öz əsərlərində bir sıra yeni sözlər, ifadələr işlətmişdir. Şairin Naxçıvana həsr etdiyi bir neçə şerində onun doğulub boya-başa çatdığı qədim diyara sonsuz sevgisi və məhəbbəti görünür. Ötən əsrin 80-90-cı illərində Məmməd Araz poeziyası yeni bir mərhələyə qədəm qoydu. Bu dövrdə o, bir şair kimi xalqın ən çox sevilən sənətkarına çevrildi, hər bir şeri böyük sevgi və rəğbətlə qarşılandı. Məmməd Arazı digər şairlərdən fərqləndirən əsas cəhətlərdən biri də məhz onun bu dövrdə yaratdığı vətəndaşlıq poeziyasıdır.

Xalq şairi Məmməd Arazın həyat yoldaşı Gülxanım İbrahimova Məmməd Araz irsinin yaşadılmasına göstərdiyi diqqət və qayğıya görə ailə üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir. Gülxanım İbrahimova demişdir ki, muxtar respublikada şairin irsinə daim yüksək qayğı göstərilmişdir. Ədibin yubileyləri Naxçıvanda geniş qeyd olunmuş, kitablarının təqdimat mərasimi keçirilmişdir. Gülxanım İbrahimova şairin doğma kəndi olan Nursuda ev-muzeyinin istifadəyə verilməsinin də Məmməd Araz yaradıcılığına verilən qiymət kimi yüksək dəyərə malik olduğunu bildirmişdir.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları muzeydə yaradılan şəraitlə tanış olmuş, ekspozisiya zalında sərgilənən eksponatlara baxmışlar.

Muzey binası iki mərtəbədən ibarətdir. Burada muzey işinin səmərəli təşkili üçün hər cür şərait yaradılmışdır. Xalq şairi Məmməd Arazın zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzey ədibin həyat və yaradıcılığı haqda geniş məlumat almağa imkan verir. Ekspozisiyada şairin müxtəlif illərdə nəşr olunan, eləcə də görkəmli sənət ustasının həyat və yaradıcılığından bəhs edən kitablar, mənalı həyat yolunun müxtəlif dövrlərini əks etdirən fotoşəkillər sərgilənir.

Ali Məclisin Sədri Məmməd Araz yaradıcılığının ətraflı tədqiq olunması, muzeylə ümumtəhsil məktəbləri arasında virtual dərslərin keçilməsi və şairin irsinin layiqincə təbliğ edilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

Muzey binası ilə tanışlıqdan sonra Ali Məclisin Sədri Xalq şairi Məmməd Arazın ailə üzvləri və iştirakçılarla birlikdə xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

**Ulu öndər Heydər ƏLİYEV:** ***Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir!***

*Möhtərəm həmvətənlər!*
*Əziz bacı və qardaşlar!*
*Azərbaycan Respublikasının vətəndaşları!*

Yeni ilin, yeni əsrin, yeni minilliyin ərəfəsində sizi – bütün Azərbaycan xalqını, müstəqil Azərbaycan Respublikasının hər bir vətəndaşını, ölkəmizin hüdudlarından uzaqlarda yaşayan soydaşlarımızı bu əlamətdar hadisə münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoş əhval-ruhiyyə və səadət arzulayıram.

Dünyanın hər yerində yeni minilliyin və yeni əsrin başlanmasına həsr olunmuş çoxsaylı konfrans, forum və müxtəlif simpoziumlar keçirilməkdədir. Dünya ictimaiyyətinin nümayəndələri, müxtəlif ölkələrin dövlət və özəl qurumlarını təmsil edən şəxslər və tanınmış siyasi xadimlər keçmişə nəzər salaraq, yeni minilliyin astanasında bəşəriyyətin qarşılaşa biləcəyi problemlər üzərində düşünür və gələn yüzillikdə öz ölkələrini və ümumən dünyanı necə gördükləri barədə fikirlərini bildirirlər.

Bu günlərdə imzaladığım xüsusi sərəncamla yeni ilin, yeni əsrin, yeni minilliyin qarşılanması ilə bağlı Azərbaycanda keçiriləcək tədbirlərin planını təsdiq etdim. XXI əsrin, yeni minilliyin başlanğıcında ölkəmizin qarşısında duran siyasi və sosial-iqtisadi problemlər, sözsüz ki, bu tədbirlər çərçivəsində geniş müzakirə olunacaqdır.

Bütün bəşəriyyətlə birgə Azərbaycan xalqı da XXI əsrə, üçüncü minilliyə böyük nikbinliklə qədəm qoyur. Əsr başa çatır, onunla birlikdə tarixin iki minillik dövrünə yekun vurulur. Əsrlərin və minilliklərin qovuşduğu bu gün tarixin xüsusi bir anıdır. Hər bir bəşər övladı kimi, Azərbaycan vətəndaşı da, sözsüz ki, belə tarixi hadisənin məhz onun taleyinə, onun həyatına təsadüf etməsindən böyük şərəf və qürur hissi duyur. İki əsrin şahidi olmaq səadəti hər insana nəsib olmur. Bu, bizim payımıza düşübdür. Azərbaycanda bu gün XIX əsrdə anadan olmuş xeyli insan da yaşayır. Deməli, onlar bu tarixi anda üç əsrin şahidlərinə çevriliblər. Bizim gənc nəslin nümayəndələri, əlbəttə ki, xüsusi hisslər keçirirlər və XXI əsrdə Azərbaycanın layiqli vətəndaşları olaraq bu tarixi günləri dönə-dönə xatırlayacaqlar. Orta nəslin nümayəndələri isə yeni əsrə, yeni minilliyə XX əsrin bir çox hadisələrinin bilavasitə iştirakçısı və şahidi olaraq qədəm qoyurlar. Beləliklə, zamanın və tarixin bu nadir anları, əslində, bütün nəsilləri tarixə qovuşdurur.

Başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşında sürətli elmi-texniki tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və yeni suveren dövlətlərin yaranması ilə, “soyuq müharibə”nin doğurduğu gərginliklə, sülh, sabitlik və əmin-amanlıq naminə göstərilən kollektiv səylərlə qalacaqdır.

Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Təbii ki, qloballaşmanın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür.

Bir tərəfdən, Azərbaycan da qloballaşmanın inkişafına öz töhfəsini verir. Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək Şərq ilə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir. Azərbaycan Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstərir. Dünyanın bir çox dövlətlərinin hərtərəfli inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var. Bunlar səmərəli beynəlxalq əməkdaşlığa təkan verəcək və qlobal inkişafa müsbət təsir göstərəcəkdir. Digər tərəfdən isə Azərbaycan hələ də müasir texnologiyaların mənimsənilməsi və geniş istifadə olunması yolunda bir çox çətinliklərlə qarşılaşır. Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək, qarşımızda duran bir çox ciddi problemləri həll etməyə qadir olaq, ümdə vəzifələrimizə uyğun müvafiq proqramları həyata keçirməyə nail ola bilək.

Azərbaycan Respublikası artıq dünya birliyinin ayrılmaz tərkib hissəsidir. İstiqlaliyyət əldə etdikdən sonra dövlətimiz qısa müddətdə Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Asiya İnkişaf Bankının üzvü olmuş, Parlamentlərarası İttifaq, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti, NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratmışdır.

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir. Azərbaycan öz milli neft strategiyası və konsepsiyasını həyata keçirməyə başlamış, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələr bağlayaraq dünya iqtisadiyyatına qovuşmasını təmin etmişdir.

Bu gün biz müstəqilliyimizin əldə olunması, qorunub saxlanılması yolunda böyük xidmətləri olan şəxsiyyətlərin, istiqlalımız naminə şəhid olan Azərbaycan övladlarının əziz xatirəsini dərin ehtiram hissi ilə yad edirik. Bu əziz gündə Azərbaycan Xalq Cümhuriyyəti banilərinin ruhu qarşısında, bolşevik terrorunun, repressiyaların, kütləvi deportasiyaların, soyqırımların, Qanlı Yanvar faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün vətəndaşlarımızın xatirəsi qarşısında baş əyib Allahdan onlara rəhmət diləyirik.

Başa çatmaqda olan XX əsr Azərbaycan xalqının taleyində mühüm rol oynamış bir dövr olmuşdur. Bəzi siyasətçilər XX əsri neft əsri adlandırırlar. Həqiqətən də, neftin bu əsrdə dünya siyasətində və iqtisadiyyatında oynadığı müstəsna rol danılmazdır. Azərbaycanın dünyada məhz neft mərkəzlərindən birinə çevrilməsi bizə bir çox xalqların neçə-neçə əsr ərzində çatdığı zirvələri qısa müddətdə fəth etmək imkanı verdi.

Bəşəriyyətin həyatında misilsiz rol oynayan neft Odlar Yurdu Azərbaycanın hələ qədim dövrlərdən ən mühüm sərvətlərindən biri olmuşdur. Neftdən geniş istifadə olunması dünyada elmin, texnikanın, iqtisadiyyatın, xüsusilə sənaye istehsalının sürətli inkişafına güclü təkan verərək insan həyatında köklü dəyişiklikliyin yaranmasına səbəb olmuşdur. Tarixə “kerosin dövrü” kimi daxil olmuş XIX əsrin sonu, XX əsrin əvvəllərində neftdən alınan bu məhsul işıq mənbəyi idi. Sonralar qaz və elektrik vasitəsilə işıqlandırma üsulları meydana çıxsa da, kerosin uzun illər başlıca işıqlandırma məhsulu olaraq qalmışdır.

Daxiliyanma mühərrikinin kəşfi neftdən istifadə olunmasında yeni dövr açdı. XX əsrin əvvəllərindən etibarən başlanan “mazut və benzin dövrü” neftdən gəmi, parovoz və avtomobil kimi nəqliyyat vasitələri üçün istifadə olunması ilə onun əhəmiyyətini xüsusilə artırdı. Birinci Dünya müharibəsi illərində isə neft artıq strateji əhəmiyyətli məhsula çevrildi.

XX əsr bəşər tarixində nə qədər mühüm hadisələrlə zəngin olsa da, qətiyyətlə demək olar ki, bu əsri səciyyələndirən, onun simasını müəyyən edən başlıca cəhət elmi-texniki tərəqqinin misligörünməmiş böyük vüsəti alması olmuşdur. XX əsrdə əldə edilmiş bütün elmi-texniki nailiyyətlərin təməlində isə məhz neft durur. Enerji mənbəyi, yanacaq məhsulu kimi nefti əvəz edə biləcək müxtəlif maddələr və üsullar tapmaq yolunda aparılan axtarışlarda bir çox uğurlar qazanılsa da, təbiətin bəşəriyyətə bəxş etdiyi bu olduqca əlverişli xammalın tam ekvivalenti hələ ki, tapılmamışdır.

***(Ardı qəzetin növbəti sayında)***

## Muxtar respublikada “Muzey günləri” davam etdirilir

*Muxtar respublikada mərkəzi icra hakimiyyəti orqanları üçün “Muzey günləri”nin tərtib olunmasından sonra həmin orqanların əməkdaşları Naxçıvan şəhərindəki muzeyləri ziyarət edir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi və milli dəyərlərimizi özündə yaşadan eksponatlarla əyani tanış olurlar.*

Noyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində olublar.

Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bunun nəticəsidir ki, bu ərazidə tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli Sərəncamı ilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb.

Qeyd olunub ki, kompleksdəki muzeydə eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir.

Sonra kollektivlər kompleksdə yerləşən Nuh Peyğəmbərin məzarüstü türbəsini də ziyarət ediblər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Daxili İşlər Nazirliyinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində, Milli Təhlükəsizlik Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivləri “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyində, Ədliyyə Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin kollektivləri Ədəbiyyat Muzeyində, Dövlət Gömrük Komitəsinin və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində, Maliyyə, Vergilər nazirliklərinin kollektivləri isə Heydər Əliyev Muzeyində olublar.

**“Şərq qapısı”**






## Qarsda “Nuh yurdu Naxçıvan – 90” mövzusunda konfrans keçirilmişdir

***Türkiyənin Qars şəhərindəki Heydər Əliyev adına Sənaye Peşə Təmayüllü Liseydə “Nuh yurdu Naxçıvan – 90” mövzusunda konfrans keçirilmişdir.***

Azərbaycanın Qarsdakı Baş Konsulluğu tərəfindən təşkil olunan konfransda Türkiyənin rəsmi şəxsləri, Azərbaycan və qardaş ölkədən olan elm və mədəniyyət adamları, şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilmişdir.

Qonaqları salamlayan Baş konsul Ayxan Süleymanov Naxçıvana muxtariyyət statusu verilməsinin tarixi və ictimai-siyasi əhəmiyyəti barədə məlumat vermişdir. Tarixin bütün dövrlərində regionda maraqları olan böyük güclərin Naxçıvandakı ictimai-siyasi proseslərə təsir etməyə cəhd etdiklərini diqqətə çatdıran Baş konsul demişdir ki, Naxçıvan əhalisi bütün məqamlarda mübariz olmuş, öz siyasi taleyinə biganə qalmamışdır. XX yüzilliyin əvvəlində olduğu kimi, ötən əsrin sonunda da muxtar respublika əhalisi Azərbaycanın müstəqilliyi yolunda əzmlə mübarizə aparmış, ümummilli lider Heydər Əliyevin ətrafında sıx birləşərək təcavüzkar Ermənistanın Naxçıvana qarşı gerçəkləşdirmək istədiyi işğalçılıq niyyətinin qarşısını almışdır. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın digər bölgələri kimi, muxtar respublika da sürətlə inkişaf edir, qədim və milli görkəmini müasir üslubda zənginləşdirir.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin əməkdaşları – tarix üzrə fəlsəfə doktoru Asəf Orucovun “Muxtariyyət ərəfəsində Naxçıvanda ictimai-siyasi vəziyyət. 1918-1924-cü illər” və İlhami Əliyevin “Qars müqaviləsi və Naxçıvanın muxtariyyət statusu”, Qars Qafqaz Universitetinin professoru Hacıəli Nəcəfoğlunun “Naxçıvan abidələri” və ədəbiyyat üzrə fəlsəfə doktoru Arzu Şeydanın “Naxçıvan ədəbiyyatı, Hüseyn Cavid” mövzularında məruzələri dinlənilmişdir. Məruzələrdə Naxçıvana muxtariyyət statusu verilməsinin tarixi əhəmiyyəti, bu siyasi-hüquqi nailiyyətin müasir dövrümüzdəki rolu, muxtar respublikanın tarixi-mədəniyyət abidələrinin dünya maddi irsi sırasındakı yeri və onların qorunub saxlanılması sahəsində görülən işlər, dünya ədəbiyyatının inkişafına böyük töhfələr vermiş görkəmli Azərbaycan şair-dramaturqu Hüseyn Cavidin yaradıcılığının həmişəyaşarlığı barədə söhbət açılmışdır.

Sonra tədbir iştirakçıları Naxçıvanın qədim və zəngin tarixindən, bugünkü uğurlu sosial-iqtisadi inkişafından bəhs edən “Nuhun yurdu Naxçıvan” sənədli filminə baxmışlar.

Foyedə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən, Azərbaycanın tarixinə, müasir inkişaf göstəricilərinə, həmçinin Qarabağ həqiqətlərinə dair nadir kitab və jurnallar sərgilənmişdir. Azərbaycan həqiqətlərinə dair əyani vəsaitlər tədbir iştirakçılarına paylanılmışdır.

Rəsmi hissədən sonra Naxçıvan Dövlət Filarmoniyası geniş konsert proqramı ilə çıxış etmişdir.

*Elektron cəmiyyət*

## Muxtar respublikada distant təhsilin tətbiqi vəziyyəti barədə

*Qəzetimizin ötən saylarında distant təhsilin tarixi, vəzifələri və əhəmiyyəti ilə bağlı oxuculara geniş məlumat verilib. Bu yazımızda isə muxtar respublikada distant təhsilin tətbiqi, ümumiyyətlə, bu istiqamətdə görülən işlər barədə söhbət açacağıq. Əvvəlcə onu qeyd edək ki, distant təhsil əhalinin bütün təbəqələri üçün ən münasib və baha olmayan təhsil sistemidir. Daha dəqiq desək, distant təhsil tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunan və uzaq məsafədən həyata keçirilən təhsil formasıdır. Məsələn, Naxçıvan şəhərindəki elektron lövhəli sinfi olan hər hansı bir məktəbdən ən ucqar dağ kəndinin bir məktəbinin elektron lövhəli sinfi ilə əlaqə saxlayıb dərs təşkil etmək; şagird və yaxud tələbənin videobağlantı vasitəsilə keçilən dərsi dinləyə və müəllimlə birbaşa əlaqə saxlaya bilməsi distant təhsilin reallaşdığı məqamdır. Yəni bu tədris üsulunun tətbiqində məsafə fərqi yoxdur. Əsas odur ki, sürətli internet şəbəkəsi olsun.*

Bəli, distant təhsilin keyfiyyəti kompüter avadanlıqlarının və sürətli internetin, o cümlədən digər audiovizual və informasiya texnologiyalarının uğurlu tətbiqindən asılıdır. Sevindirici haldır ki, muxtar respublikada distant təhsilin tətbiqi üçün geniş imkanlar yaradılıb. Bu gün telekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləşdirilib. İndi muxtar respublika sakinləri həm iş yerində, həm də evində sürətli internetdən istifadə edə bilirlər.

Optik şəbəkənin genişləndirilməsi digər sahələrdə olduğu kimi, təhsildə də internetdən istifadəyə geniş imkanlar yaradıb. Hazırda muxtar respublikada təhsilin informasiyalaşdırılması və müasir texnologiyalarla təmin olunması sahəsində ardıcıl işlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı nəticəsində hər 12 şagirdə 1 kompüter düşməklə muxtar respublikanın ümumtəhsil məktəblərinə 3409 kompüter dəsti verilib, təhsil ocaqlarında 600-ə yaxın elektron lövhə quraşdırılıb. Qeyd edək ki, muxtar respublikanın ali təhsil müəssisələrinə verilən internetin sürəti 100 mb/saniyədir. Tam orta məktəblərdə isə bu rəqəm 5-10 mb/san arası dəyişir. Məktəblərin elektron dərsliklərlə təminatı və elektron lövhəli siniflərin istifadəyə verilməsi dərslərin virtual tədrisinə şərait yaradıb, o cümlədən distant təhsilin tətbiqinə geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına böyük imkanlar yaradıb. Bu il iyulun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Təhsilin vəziyyəti və qarşıda duran vəzifələr”lə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin distant təhsilin muxtar respublikada tətbiqi üçün müvafiq qurumlara müxtəlif tapşırıqlar verməsi, tapşırıqların icrasının diqqət mərkəzində saxlanılması bu sahədə böyük uğurlar qazanılmasına imkan yaradıb. Ötən müddət ərzində bu istiqamətdə həyata keçirilən tədbirlərə nəzər salaq.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyi distant təhsilin tətbiqi ilə bağlı ardıcıl tədbirlər həyata keçirməkdədir. Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili məqsədilə mərkəzi server qurulub, ümumtəhsil məktəbləri və 10 muzey bu sistemə qoşulub. Server yeni texnologiyalara cavab verən ən müasir göstəricilərə malikdir. Qurulan sistemə qoşulma sayında məhdudiyyət yoxdur. Həmin sistemdən videokonfransların, müəllim-şagird dialoqunun, mühazirələrin onlayn rejimdə təşkilində, vebinarların keçirilməsində istifadə oluna bilər. Sistemin bir neçə səs və videoötürücü yolları vardır ki, bu da onlayn rejimdə səs və video bağlantı yaradılmasına imkan verir. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin direktoru Vüqar Rəsulov bildirdi ki, qurulan distant təhsil sistemi ən müasir imkanlara malikdir.

Onu da qeyd edək ki, 15 sentyabr – “Bilik günü” münasibətilə Şərur Texniki-Peşə və Sürücülük Məktəbinin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə distant təhsilin təqdimatı əsasında interaktiv əlaqə yaradılaraq məktəblərlə muzeylər arasında canlı dərs aparılıb, elektron təhsilin imkanlarından istifadənin əsası qoyulub. Həmin gündən indiyə kimi Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi, Hüseyn Cavidin ev-muzeyi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Ədəbiyyat Muzeyi ilə interaktiv əlaqə yaradılaraq açıq dərslər keçilib.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov söhbət zamanı bildirdi ki, nazirliyin ***www.tehsil.nakhchivan.az*** internet saytının “e-təhsil” bölməsində qeydiyyatdan keçməklə Distant Tədris Mərkəzinə qoşulmaq mümkündür. Nazirlik tərəfindən yaradılan bölmədən istifadə qaydalarına dair ümumtəhsil məktəbləri, peşə və orta ixtisas təhsili müəssisələrinin iştirakı ilə seminarlar keçirilib, canlı bağlantının qurulması və distant təhsilin imkanlarından düzgün istifadəyə nail olmağın yolları izah edilib. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, ilkin qoşulma zamanı 40, daha sonra 70, 90 və nəhayət, Şərur rayon Dizə kənd tam orta məktəbinin açılışı zamanı 176 təhsil müəssisəsinin keçilən canlı dərs prosesini izləməsinə nail olunub.



Yazımızı hazırlayarkən Cəlil Məmmədquluzadənin ev-muzeyində Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığı haqqında keçilən dərsi izlədik. Muxtar respublikanın 192 tam orta məktəbinin şagirdləri elektron lövhə vasitəsilə birbaşa muzeydə keçilən dərsi izləyib, görkəmli ədibin həyat və yaradıcılığı ilə daha yaxından tanış oldular.

Distant təhsil muxtar respublikada məktəbə gedə bilməyən hərəkət qabiliyyəti məhdud uşaqların təhsil almalarına da böyük imkanlar yaradıb. Belə ki, oktyabr ayında Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi bu kateqoriyadan olan uşaqların valideynləri tərəfindən yüksək dəyərləndirilib. Distant Tədris Mərkəzində iki otaq ayrılıb. Otaqların birində mərkəzi server və çevirici avadanlıqlar quraşdırılıb, tədris sinfi intellektual-elektron lövhə, kompüter, smart kamera, monitor və digər texniki avadanlıqlarla təchiz olunub. Distant təhsilə 4 müəllim cəlb olunub, həmin müəllimlərə, eləcə də sağlamlıq imkanları məhdud uşaqların valideynlərinə sistemdən istifadə qaydalarının öyrədilməsi məqsədilə kurs keçilib.

Naxçıvan Dövlət Universitetində distant təhsilin tətbiqi ilə əlaqədar tədbirlər mərhələli şəkildə həyata keçirilir. Bu barədə isə məlumatı Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru Surə Seyiddən aldıq. O bildirdi ki, Cənubi Koreyanın KOICA şirkəti ilə birgə həyata keçirilən “Elektron universitet” layihəsi tam olaraq distant təhsili əhatə etməsə də, bu layihə çərçivəsində onlayn təhsili həyata keçirmək mümkündür. Belə ki, onlayn təhsil alan tələbə müəllimin verdiyi tapşırıqları internet üzərindən izləmək, tapşırıqları yerinə yetirmək, müəllimin və imtahan suallarını cavablandırmaq imkanına malik olur. Bu layihədə müəllimlərin mühazirələri elektron formatda yalnız ofis proqramlarını əhatə etməklə bitmir, eyni zamanda bütün dünyada məşhur olan qarışıq tədris metodunu (blended learning) özündə ehtiva edir. Qarışıq tədris metodunun tədrisdə tətbiqi müəllimlərin ən müasir studiya çəkilişində kamera qarşısındakı peşəkar çıxışı ilə yanaşı, “power point” proqramında sxemlər və diaqramlarla mühazirə mətninə tətbiq etdiyi ən son yenilikləri əks etdirməlidir. Hazırlanan bu çəkiliş universitetin serverində yerləşdiriləcək və tələbələr mühazirələri məsafəli, onlayn izləyə biləcəklər. Hazırda tədrisdə İKT-dən peşəkar istifadə edən 8 müəllim sınaq çəkilişlər üçün seçilib və bu günlərdə hər biri tədris etdiyi fənnin bir semestrlik proqramını studiya çəkilişləri vasitəsilə təqdim edəcəkdir. Bütün bunlar isə ali təhsil ocağında gələcəkdə distant təhsilin tam tətbiqinə rəvac verəcəkdir.

Distant təhsil dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində tətbiq olunur. Məhz bu sistemin muxtar respublikada da tətbiqi regionun hərtərəfli inkişafının göstəricisidir. Sirr deyil ki, müasir texnologiyaların elm, təhsil və digər sahələr üzrə tətbiqi bu günün ən mühüm şərti, inkişafın əsas meyarıdır. Bu gün ümumtəhsil və ali təhsil müəssisələrində oxuyan şagird və tələbələr yaradılan bu şəraitin onlar üçün olduğunu dərindən dərk etməli, ölkəmizin gələcək inkişafı naminə öz intellektual səviyyələrini bu sistemdən istifadə etməklə daha da artırmağa səy göstərməlidirlər. Unutmamalıdırlar ki, sabahımız üçün məhz onlar cavabdehlik daşıyırlar. Bu vəzifəni yerinə yetirmək üçün distant təhsil sistemi ən mütərəqqi sistemdir və bu gün onların istifadəsinə verilib. Buyurun, sizə yaradılmış şəraitdən istifadə edin, bununla göstərilən etimadı doğruldun.

**Sara ƏZİMOVA**

*Muxtar respublikamızda ekoloji tarazlığın qorunması, yeni yaşıllıq sahələrinin həcminin artırılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir.*

## Növbəti iməcilikdə də yeni yaşıllıqlar salınıb

Noyabrın son həftəsinə təsadüf edən növbəti şənbə iməciliklərində də yeni yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilməsi, eyni zamanda belə sahələrin həcminin genişləndirilməsi diqqət mərkəzində saxlanılıb. Belə ki, Naxçıvan şəhər sakinləri tərəfindən Uzunoba Su Anbarının ətrafında 3 hektarlıq ərazidə 2500 ədəd meyvə ağacı əkilib, müəssisə və təşkilatların ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Muxtar respublikanın ən böyük rayonlarından biri olan Şərur rayonunda, Naxçıvan-Sədərək magistral yolunun Zeyvə, Mahmudkənd və Cəlilkənd hissəsində 1500 ədəd meşə ağacı əkilib.

Babək rayonunun Şəkərabad və Hacıvar kəndləri ərazisində 120 ədəd həmişəyaşıl ağac, Naxışnərgiz kəndində 380 ədəd meyvə ağacı əkilib.

Bağlar diyarı Ordubad rayonundakı iməciliklərdə də aktivlik qeydə alınıb. Belə ki, Naxçıvan-Ordubad magistral yolunun Dəstə kəndi ərazisində 60 ədəd meyvə, rayonun digər ərazilərində 1450 ədəd meyvə, 300 ədəd meşə ağacı əkilib. Həmin magistral yolun Culfa rayonu hissəsində isə 620 ədəd meşə, Bənəniyar kəndində 620 ədəd gül kolu və 8 ədəd həmişəyaşıl ağac, Culfa şəhərində 270 meyvə ağacı əkilib.

Kəngərli rayonunda isə Naxçıvan-Sədərək magistral yolunun kənarlarında 1000 ədəd, Xok kəndindəki 1 hektarlıq ərazidə yeni salınmış bağda 500 ədəd meyvə ağacı əkilib.

Şahbuz rayonundakı Kardaş massivində 0,7 hektarlıq ərazidə 450 ədəd meyvə, Badamlıq massivində 0,5 hektarlıq ərazidə 210 ədəd meyvə ağacı, Şahbuz şəhəri ərazisində isə 300 ədəd gül kolu və 200 ədəd həmişəyaşıl ağac əkilib.

Sədərək rayonunun mərkəzi Heydərabad qəsəbəsindəki park və xiyabanlarda, həmçinin Qaraağac kəndinə gedən yolun kənarlarında 300 ədəd meyvə ağacı, 300 ədəd gül kolu və 100 ədəd həmişəyaşıl ağac əkilib.

Həmin gün muxtar respublikanın bütün şəhər və rayonlarında ahıl vətəndaşların həyətlərində təmizlik-abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda muğam gecəsi





***Noyabrın 30-da Beynəlxalq Muğam Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında muğam konserti olub. Konsertin aparıcısı muğam gecəsinin solistlərini tamaşaçılara təqdim edib.***

Muğam gecəsində ilk çıxış edən gənc xanəndə Rəvanə Ərəbovanın ifasında Azərbaycan muğamları və təsniflər səslənib. İstedadlı xanəndə Ehtiram Hüseynovun ifasında səslənən muğamlar və xalq mahnıları da alqışlarla qarşılanıb. Gülay Zeynallının ifasında da muğamlarımız və xalq mahnılarımız səsləndikdən sonra səhnəyə Azərbaycan Respublikasının Xalq artisti Aygün Bayramova dəvət olunub. Onun ifasında səsləndirilən Azərbaycan muğamları və xalq mahnıları muğamsevərlər tərəfindən hərarətli alqışlarla qarşılanıb. Ehtiram Hüseynov, Gülay Zeynallı və Rəvanə Ərəbovanın birgə ifa etdikləri "Qarabağ şikəstəsi" ilə muğam konserti başa çatıb.

Qeyd edək ki, xanəndələri istedadlı tarzən Rövşən Qurbanovun bədii rəhbəri olduğu "Buta" instrumental ansamblı müşayiət edib.

**Əli RZAYEV**

*İdman icmalı*

## Ötən ay daha çox kollektiv idman növləri üzrə yarışlar keçirilib

***Gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsi yeni nəslin inkişafının əsas vasitəsidir. Dövlət gənclər siyasəti gənclərin öz bilik və bacarıqlarını nümayiş etdirməsini, cəmiyyətdə layiqli yer tutmalarını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Bu siyasətin həyata keçirilməsi cavabdeh dövlət qurumu kimi Gənclər və İdman Nazirliyinə tapşırılıb.***



Naxçıvan Muxtar Respublikasında gənclər arasında idman növlərini geniş yaymaq və təbliğ etmək üçün müəyyən tədbirlər planı hazırlanıb həyata keçirilir. Tədbirlər planına daxil olan əsas məsələ isə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının təmsil etdikləri idman növlərini gənclər arasında geniş yaymaqdır. Şəhər, rayon mərkəzləri və kəndlərdə mütəmadi olaraq təşkil edilən yarışlar gənclərin idmana axınını sürətləndirir.

Muxtar respublika rəhbərinin idmana göstərdiyi diqqət və qayğı bu sahənin şaxələnməsinə öz



töhfəsini verir. Hər il muxtar respublikada tikilən yeni idman obyektləri, fəaliyyət göstərən komplekslərin müasir avadanlıqlarla təmin olunması Naxçıvan idmanının inkişafını sürətləndirir, idmançıların uğurlarını artırır. Gənclərin asudə vaxtlarını idmana sərf etmələri aparılan düzgün siyasətin bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi noyabr ayında bir sıra yarışlar, turnirlər, birinciliklər təşkil edib. Təbii ki, burada əsas məqsəd gənclərin idmana marağını artırmaq və idman növlərini muxtar respublikada geniş yaymaqdır. Ötən ay beynəlxalq tələbə-gənclər həftəsində keçirilən çoxsaylı yarışlarla yadda qaldı. 10-17 noyabr tarixində nazirliyin ilk təşkil etdiyi yarış ali və orta ixtisas təhsili məktəblərinin tələbələri arasında badminton üzrə birincilik oldu. Həmçinin həmin gün ali və orta ixtisas təhsili məktəblərinin tələbələri arasında şahmat birinciliyi baş tutdu. 40-dan çox zəka sahibinin mübarizə apardığı birinciliyin əsas məqsədi şahmatın muxtar respublikada geniş yayılmasını təmin etmək idi. Beynəlxalq tələbə-gənclər həftəsində Boks, Voleybol, həmçinin Hava və Ekstremal İdman Növləri federasiyaları da nazirliklə birgə təşkil etdiyi yarışlarda gənclərin bu sahələrə marağının nə dərəcədə yüksək olduğunu nümayiş etdirdilər.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr edilmiş kişilər arasında keçirilən basketbol üzrə muxtar respublika birinciliyi də idman ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin həyata keçirdiyi tədbirlər təkcə muxtar respublika əhəmiyyətli idman yarışlarını əhatə etmir. Belə ki, ötən ay ərzində muxtar respublikanın şəhər və rayonlarında təşkil olunan bir sıra yarışlarda gənclər qüvvələrini sınayıblar.

İlk olaraq Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi nazirliyin tədbirlər planına uyğun olaraq, bir sıra idman növləri üzrə şəhər birincilikləri təşkil edib. MMA qaydasız döyüş növü, yüngül atletika, mini-futbol üzrə keçirilən yarışlarda əsas məqsəd perspektivli yeniyetmə və gənc idmançıları üzə çıxarmaq, onları daha böyük turnirlərə hazırlamaq olub.

Muxtar respublikanın rayonlarında ay ərzində müəyyən yarışlar təşkil olunub ki, bunlar daha çox kollektiv idman növlərini əhatə edib. Ordubad və Sədərək rayonlarında keçirilən voleybol, Şahbuz rayonunda təşkil olunan yüngül atletika və şahmat yarışlarında, ümumilikdə, 300-dən çox idmançı çıxış edib.

Noyabr ayında keçirilən yarışlara nəzər yetirsək, daha çox kollektiv idman növləri üzrə birinciliklərin keçirildiyinin şahidi olarıq. Bu, onun göstəricisidir ki, son zamanlar ölkə üçün problemli məsələyə çevrilən kollektiv idman növləri bu gün muxtar respublikada sürətlə inkişaf etməkdədir.

Noyabr ayında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi və tədbirlər planına əsasən həyata keçirdiyi yarış və tədbirlərdə 1300-dən çox yeniyetmə və gənc iştirak edib. Bu göstərici isə bir ay üçün yüksək nəticədir.

**✍ Ceyhun MƏMMƏDOV**

## Dəm qazı insan həyatı üçün təhlükəlidir

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin aidiyyəti qurumları tərəfindən aparılan reydlər zamanı məlum olmuşdur ki, havaların soyuması ilə əlaqədar bir çox hallarda vətəndaşlar tərəfindən yaşayış sahələrində müvafiq norma və qaydaların tələblərinə zidd olaraq qaz təsərrüfatından istifadə edilir. Bu da yanğınların baş verməsinə, ən başlıcası isə insanların dəm qazından zəhərlənmələrinə səbəb olur.*

Statistika göstərir ki, dəm qazı ilə zəhərlənmə daha çox rast gəlinən zəhərlənmələr siyahısında dördüncü yerdədir. Kimyəvi adı karbon-monooksid olan dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız, havadan yüngül, suda pis həll olunan qazdır. Bu qaz üzvi maddələrin, o cümlədən təbii qazın, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir.

Dəm qazı ilə zəhərlənməyə səbəb kimi hamamda və vanna otaqlarında nəfəsliklərin olmamasını, suqızdırıcıların hamam və vanna otaqlarında quraşdırılmasını, soba ilə qızdırıcı sistemlərdə texniki təhlükəsizlik qaydalarının pozulmasını, standarta uyğun olmayan və kustar üsulla hazırlanmış qaz sobalarından və suqızdırıcılardan istifadə edilməsini misal göstərmək olar.

İnsanlar yüksək dəm qazı olan mühitdə çox qaldıqda zəhərlənmə daha güclü, ölüm də bir o qədər sürətli olur. Dəm qazından zəhərlənmə hallarının yuxarıda göstərilən misallarla yanaşı, eyni zamanda avtomobillərdə də baş verməsi mümkündür. Belə ki, avtomobilin qarajda 10 dəqiqə işləməsi şəraitində nəfəs alan adamın qanında karbon-monooksidin miqdarı ölümcül həddə çata bilər. Havada dəm qazının miqdarı 0,08 faiz olduqda başağrısı, başgicəllənmə və boğulma başlayır. Dəm qazının miqdarı nəfəs aldığımız havada 0,32 faiz olduqda 30 dəqiqə ərzində, 1,2 faiz olduqda isə 2-3 dəqiqə ərzində ölümlə nəticələnən bədbəxt hadisə baş verir. Zəhərlənmə zamanı ölümün səbəbi isə tənəffüs mərkəzinin iflici nəticəsində ürəyin dayanmasıdır. Havası karbon oksidi ilə zəngin olan otaqda qaldıqda zəhərlənən insanda ürək bulanması, ümumi yorğunluq, yuxuya meyillilik və təngnəfəslik müşahidə olunur və dəri solğunlaşır.

Əgər dəm qazından zəhərlənmə halları baş veribsə, ən əvvəl zərərçəkəni dərhal təmiz havaya çıxarmaq və kürəyi üstə, kip bağlanan paltarda uzatmaq lazımdır. Zərərçəkənin bütün bədəni aktiv hərəkətlərlə ovuşdurulmalı, başına və sinəsinə soyuq kompres qoyulmalıdır. Zərərçəkmişin huşu özündədirsə, ona çay içirmək məsləhətdir; əgər huşunu artıq itiribsə, onun burnuna naşatır spirtində isladılmış pambıq yaxınlaşdırılır. Zərərçəkmişin tənəffüsü dayanıbsa, ona mütləq süni nəfəs vermək və təcili tibbi yardım çağırmaq lazımdır.

Narahatlığa səbəb olan amillərdən biri də vətəndaşlar tərəfindən yaşayış sahələrində kustar qaydada hazırlanmış qeyri-standart qaz sobalarından və suqızdırıcılardan istifadə olunmasıdır. Buna görə də zavodda istehsal edilmiş qaz cihazlarını əldə etmək məsləhət görülür. Qeyri-standart qaz cihazlarından istifadə edilməsinə, ümumiyyətlə, yol verilməməlidir. Cihaz quraşdırıldıqdan sonra onun istifadə qaydaları ilə tanış olmaq lazımdır. Çünki artıq qeyd olunduğu kimi, partlayış, yanğın və dəm qazı ilə zəhərlənmə kimi qəza hadisələrinin əksəriyyəti bu qaydaların bilinməməsi və ya onlara riayət edilməməsi səbəbindən baş verir. Bunun üçün cihazın istismarı qaydaları, avtomatik təhlükəsizlik qurğusu ilə təchiz olunub-olunmaması, tüstü borusunun düzgün quraşdırılması, ən vacibi isə hansı şəraitdə normal rejimdə işləməsi məsələlərini dəqiq bilmək və yadda saxlamaq lazımdır.

Belə hallarla üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin ***"112"*** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin ***"101"*** xidmətinə məlumat verilməlidir.

*Vətəndaşlara bir daha tövsiyə edirik ki, qaz sobalarından və qızdırıcı cihazlardan istifadə edərkən təhlükəsizlik qaydalarına əməl olunsun. Evdən çıxarkən qızdırıcı sobaları, qaz və elektrik cihazlarını yanılı vəziyyətdə nəzarətsiz qoymayın, onları söndürməyi unutmayın!*

***Mirtaleh SEYİDOV***
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi, daxili xidmət kapitanı***


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 1003